**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№360/3** **29 noyabr 2023-cü il**

**Beynəlxalq Audit Standartları və yeni dövrün çağırışları nəzərə alınmaqla audit qanunvericiliyinin təkmilləşdirilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş Planının 1.1.1-ci "Beynəlxalq Audit Standartları və yeni dövrün çağırışları nəzərə alınmaqla audit qanunvericiliyinin təkmilləşdirilməsi" bəndinin icra edilməsi məqsədilə Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov, B.Qasımova) tərəfindən hazırlanmış "Beynəlxalq Audit Standartları və yeni dövrün çağırışları nəzərə alınmaqla audit qanunvericiliyinin təkmilləşdirilməsinə dair Hesabat"ı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Beynəlxalq Audit Standartları və yeni dövrün çağırışları nəzərə alınmaqla audit qanunvericiliyinin təkmilləşdirilməsinə dair Hesabat" nəzərə alınsın (əlavə olunur).

2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki:

2.1. Auditorlar Palatası tərəfindən 2023-cü il ərzində qanunvericiliyin təkmilləşdirilməsinə dair təqdim olunmuş layihələrin müvafiq qurumlarla razılaşdırılması başa çatdırılsın və bu barədə Palatanın rəhbərliyinə arayış təqdim edilsin;

2.2. bir ay müddətində Beynəlxalq Audit Standartları və yeni dövrün çağırışları nəzərə alınmaqla audit qanunvericiliyinin təkmilləşdirilməsinə dair görülmüş işlər barədə məqalənin hazırlanaraq KİV-də dərc etdirilməsi təmin edilsin.

2.3. qanunvericiliyə edilmiş dəyişiklikləri mütəmadi olaraq nəzarətdə saxlasın və zəruri olduqda Palata tərəfindən müvafiq təkliflərin layihələrinin hazırlanmasını və müvafiq orqanlara təqdim edilməsini təmin etsin.

3. Bu qərarın və "Hesabat"ın mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**